*İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini bütün dünyaya göstərdi və bu şanlı qələbə tarixdə əbədi qalacaq. Azərbaycan xalqı müzəffər xalq kimi qürur hissi ilə yaşayacaq.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Prezident İlham Əliyev mayın 28-də Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib ki, Azərbaycanın milli bayramı olan Respublika Günündə bura – düşməndən təmizlənən Ağdama toplaşmağımız bir daha müstəqilliyimizin güc-qüdrətini göstərir: "Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı şərəflə yerinə yetirdi".**



# "Azərbaycan bundan sonra qalib dövlət kimi inkişaf edəcək"

Dövlətimizin başçısı qırx dörd günlük müharibənin Azərbaycanın gücünü, Silahlı Qüvvələrimizin rəşadətini, qəhrəmanlığını, xalqımızın birliyini göstərdiyini vurğulayıb. Ölkə rəhbəri əlavə edib ki, bu müddətdə xalqımız bir yumruq kimi birləşərək düşmənə sarsıdıcı zərbələr endirib, işğalçını torpağımızdan qovub. Bizim üçün unudulmaz qırx dörd günün hər bir günü qəhrəmanlıq dastanına çevrilib: "Çünki hər gün biz irəli gedirdik, hər gün. Bir gün də geri addım atmamışıq. Düşmən müharibənin son mərhələsində panikaya, isterikaya qapılaraq öz məğlubiyyətini artıq dərk etməyə başlamışdı. Bir daha gördü ki, Azərbaycan qarşısında onlar duruş gətirə bilməyəcəklər".

Prezident İlham Əliyev çıxışında Vətən müharibəsinin şanlı tariximiz kimi əbədi qalacağını, buna görə də bu savaşın dərindən öyrənilməsinin zəruri olduğunu diqqətə çatdırıb. Ölkə rəhbəri hazırda dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində 44 günlük müharibənin, Azərbaycanın reallaşdırdığı hərbi yeniliklərin təhlilinin aparıldığını da bildirib. Eyni zamanda, texniki imkanların müharibənin nəticələrinə ciddi təsir etməsi ilə bərabər, şanlı qələbəni rəsmiləşdirən, bayrağı ucaldan, öz sinəsini qabağa verən, ölümə gedən Azərbaycan əsgər-zabitinin olduğunu da xatırladıb: "Biz bu müharibəni, bu qələbəni bizim qəhrəman hərbçilərimizə borcluyuq, şəhidlərimizə borcluyuq. İstənilən texnikan ola bilər, istənilən maddi imkanın ola bilər, əgər Vətən sevgisi yoxdursa, əgər milli ruh yoxdursa, əgər Vətən uğrunda ölümə getməyə hazır deyilsənsə heç vaxt Qələbə qazanmazsan. Dırnaqarası qəhrəman erməni əsgərləri bizim əsgərlərimizi görərkən müharibənin artıq ikinci mərhələsində silahları yerə qoyub qaçırdılar, bu gün də qaçırlar".

Dövlətimizin başçısı Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə Ermənistanın işğal altında olan ərazilərində vəhşiliklər törətdiyini, barbarlıq nümayiş etdirdiyini, sanki bu torpaqlardan vəhşi qəbilə keçdiyini vurğulayıb. Ölkə rəhbəri daha sonra Azərbaycanın təkcə işğalçı Ermənistan dövlətinə qarşı deyil, faşizm əleyhinə müharibə apardığını da diqqətə çatdırıb.

Ermənistanın torpaqlarımızı 30 il ərzində işğal altında saxlaması birbaşa olaraq düşmən ölkənin anti-Azərbaycan siyasətinin nəticəsidir. Ermənistan tərəfindən respublikamızın tarixi abidələrinin məhv edilməsi, yaşayış evlərinin, infrastrukturun dağıdılması, təbii sərvətlərin talan olunması məhz bunun təsdiqidir.

Onu da deyək ki, uzun illər Ermənistanın siyasi hakimiyyətində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb, sülhün bərqərar olmasına imkan verilməyib. Düşmən tərəfindən bu siyasət getdikcə dərinləşib. Məsələn, 2019-cu ildə Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın işğal altındakı ərazisi olan Xankəndidə yaşayan ermənilərlə görüşərkən "Artsax Ermənistandır və nöqtə" deyərək, ölkəsinin gerçək niyyətinin, əslində, işğal siyasətini davam etdirmək olduğunu, məcburi köçkünlərin hüquqlarını heçə saydığını və azərbaycanlılara qarşı nifrət hissini bir daha açıq bir şəkildə ifadə edib.

Vətən müharibəsində Azərbaycan beynəlxalq hüququn tələblərinə uyğun olaraq işğal altındakı ərazilərini azad edərək öz ərazi bütövlüyünü reallaşdırıb. Müharibə dövründə Ermənistan beynəlxalq humanitar hüququn normalarını kobud şəkildə pozaraq döyüş zonasından çox uzaqda yerləşən Azərbaycanın Gəncə, Bərdə, Tərtər və əhalisi sıx olan digər şəhərlərini qadağan olunan raketlərlə atəşə tutub. Gəncənin və Bərdənin, ümumilikdə, 6 dəfə raket hücumuna məruz qalması nəticəsində 60 nəfər həyatını itirib, 200-dən çox şəxs müxtəlif dərəcəli xəsarətlər alıb. Beləliklə, Ermənistan vandal, anti-demokratik bir dövlət olduğunu, faşist ideologiyasına xidmət etdiyini bütün dünyaya göstərib.

Bir müddət bundan əvvəl Ağdamda səfərdə olan Rusiyada çıxan "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko jurnalistlərə müsahibəsində deyib: "Yerlə bir edilən Ağdam şəhəri atom bombası ilə dağıdılmış Xirosima və Naqasakini xatırladır. Lakin ermənilər burada atom bombası partlatmayıblar, onların atom bombası yox idi. Ermənilər burada Azərbaycan xalqına nifrət bombası partladıblar".

İ.Korotçenko daha sonra qeyd edib ki, törədilmiş dağıntıların miqyası ağlasığmazdır. Dünyada vandalizm, nifrət və düşmənçiliyin bu qədər geniş miqyas aldığı bəlkə də ikinci elə yer yoxdur. Bu, hərbi cinayətdir, Ermənistanın hərbi və siyasi rəhbərliyi, məhz buna görə beynəlxalq tribunalda cavab verməlidir. Belə əməllər bağışlanmamalıdır.

Baş redaktor erməni faşizmi ilə bağlı fikirlərini belə tamamlayıb: "Bu, insanlıq əleyhinə cinayətdir, bu, vəhşicəsinə törədilmiş hərbi cinayətdir. Ermənistanda Birinci və İkinci Qarabağ müharibələrini törədən siyasətçilər, bir milyondan çox azərbaycanlını doğma yurdlarından didərgin salan erməni hərbçiləri və yaraqlıları öz hərbi cinayətlərinə görə cavab verməlidirlər".

Ermənistanın ölkəmizə qarşı bu cür vəhşiliyi, barbarlığı heç də təsadüfi deyildi. Düşmən əzəli-əbədi tarixi torpaqlarımızdan, necə deyərlər, iz-tozumuzu silməklə işğalçılıq siyasəti ilə əldə etdiyi ərazilərimizin unudulacağını, əsl sahiblərinin bir daha bu yerlərə dönməyəcəklərini düşünürdü. Dövlətimizin başçısının vurğuladığı kimi, "onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq. Bax, durmuşuq burada, öz doğma torpağımızda… Bütün buraları bərpa edəcəyik. Yeni böyük baş plan tərtib ediləcək. Müvafiq göstərişlər verilib. Hər bir şəhər üçün xüsusi baş plan tərtib ediləcək. Burada bütün inzibati binalar, ictimai binalar, məktəblər, tibb ocaqları yaradılacaq. Bütün infrastruktur yaradılacaq. Küçələr salınacaq, parklar, xiyabanlar salınacaq. Bütün şəhərlərdə qələbə abidələri ucaldılacaq və həyat qayıdacaq".

Şübhəsiz ki, bu dəhşətli yaraların sağalmasına, Azərbaycan şəhərlərinin, digər yaşayış məntəqələrinin bərpa edilməsinə çox böyük zaman, onilliklər lazım olacaq. Lakin Azərbaycanın siyasi əzmkarlığı, güc-qüdrəti, müdrik rəhbəri, əməksevər, səbirli və inadkar xalqı var. Bütün bunlar isə işğaldan azad edilən ərazilərin – kənd və şəhərlərin bir müddətdən sonra yenidən dirçələcəyi, inkişaf yoluna qədəm qoyacağı əminliyi yaradır.

Erməni faşizminin dəhşətlərindən danışarkən, bir məqamı da qeyd etmək istərdik. Düşmən işğal dövründə, eləcə də təslim olub torpaqlarımızdan çıxarkən, Azərbaycan ərazilərini başdan-başa minalayıb.

Hazırda həmin ərazilərin xəritəsinin Azərbaycana verilməməsi həmin ölkənin "mina müharibəsi"ni davam etdirməsinin sübutudur. Ermənistanın vaxtilə işğal altında saxladığı torpaqların böyük bir qismini minalaması onun militarist siyasətinin miqyas və mahiyyətindən xəbər verir.

Ümumiyyətlə, Ermənistan militarist siyasətə daim üstünlük verib, bunu dövlət siyasəti səviyyəsinə yüksəltdiyini də heç də gizlətməyib. Bu, onun fəaliyyətində açıq-aşkar nəzərə çarpıb. Zəif iqtisadiyyata malik olan, sosial problemlər məngənəsində sıxılan, xarici borc və kredit bataqlığında boğulan Ermənistanın bütün maddi resursunu silah-sursat alınmasına yönəltməsi, ölkəmizə qarşı işğalçılıq siyasəti yürütməsi təkcə Azərbaycanın deyil, bütün regionun social-iqtisadi inkişafına böyük zərbə vurub.

Artıq işğaldan azad olunan ərazilərimizin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılması sürətlə həyata keçirilir. Dövlətimizin başçısı tərəfindən erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməli qoyulur, tikinti işləri getdikcə geniş vüsət alır.

*(ardı 2-ci səhifədə)*

# “Azərbaycan bundan sonra qalib dövlət kimi inkişaf edəcək”

*(əvvəli 1-ci səhifədə)*

Prezident İlham Əliyev Qarabağın bərpası məqsədilə bir sıra mühüm sənədlər imzalayıb, müvafiq təsisatlar yaradıb, aidiyyatı qurumlara tapşırıqlar verib. Bərpa prosesində Dövlət-Sahibkar Tərəfdaşlığının İnkişafı Mərkəzinin mexanizminin tətbiqi imkanlarından da yararlanmaq nəzərdə tutulub. Həmçinin hazırda həmin torpaqlarda biznes qurmaq istəyən sahibkarların biznes layihələrinin Kiçik və Orta Biznesin İnkişafı Agentliyində baxılması qərara alınıb.

Bütün bunlarla bərabər, Enerji Məsələlərini Tənzimləmə Agentliyi tərəfindən işğaldan azad edilən ərazilərdə əvvəllər mövcud olmuş və tamamilə dağıdılmış enerji güclərinin bərpası istiqamətində müvafiq istiqamətdə işlər aparılır.

Ölkə rəhbərinin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Sərəncamı ilə müəyyənləşdirilən əsas hədəflər sırasında xüsusi yer alıb. Belə ki, növbəti 10 il üzrə inkişafımızın bundan sonrakı mərhələsi üçün yol xəritəsi sayılan bu sənədə görə, beş prioritetdən birində məhz düşməndən təmizlənən ərazilərə əhalinin qayıdışının daha intensiv formada reallaşdırılması, məskunlaşmanın dayanıqlığı və nəhayət, məskunlaşmış ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası nəzərdə tutulub.

Qarşıdakı onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair həmin beş milli prioritet sırasında işğaldan azad olunan ərazilərə böyük qayıdışın reallaşdırılması, Qarabağın dirçəlişinə nail olunması vəzifəsi xüsusi yer tutur. Bununla əlaqədar “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də deyilir: “Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu böyük qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir”.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də Qarabağın dirçəlişinin reallaşdırılması ilə bağlı qeyd edilir ki, əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilən ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını gerçəkləşdirmək mümkündür.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 3 iyun.- S.1;2.